# Qala Qoruğunda Xalq rəssamı Əşrəf Heybətovun "Doğma Qala" adlı fərdi sərgisi açılıb

**Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin Qala Qəsrində Azərbaycan Xalq rəssamı Əşrəf Heybətovun "Doğma Qala" adlı fərdi sərgisi açılıb.**



"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən bildirilib ki, sərgidə rəssamın doğulduğu və yaradıcılıq ilhamı aldığı Qala kəndinə həsr edilmiş, Abşeronun təbiətini, mənzərələrini və milli-mədəni ruhunu əks etdirən 25-dən çox əsəri nümayiş olunur. Əsərlərdə rəssamın fərdi üslubu, koloristik zənginliyi və Abşeronun bədii-estetik ovqatını duymaq mümkündür.

Azərbaycan.- 2025.- 28 avqust, №181.- S.11.